# Maliyyə Restrukturizasiyası və Kreditlərin Bərpası Departamentinin Hüquq Şöbəsinin Rəhbəri

# (Head of Legal Unit in the Financial Restructuring and Recovery Department)

**Öhdəliklər:**

- Hüquq şöbəsinin öhdəsinə düşən tapşırıqların və funksiyaların yerinə yetirilməsinin təşkili, həmçinin şöbə əməkdaşlarının əmək intizamına riayət etməsinə nəzarət;
- İri razılaşmaların, məhkəmə iclaslarının, müştəri/bank ilə danışıqların hazırlanmasında və həyata keçirilməsində iştirak;
- Məhkəmə və icra orqanlarında və girov əmlakın reallaşdırılması məqsədi ilə təşkil olunan hərraclarda bankın maraqlarının təmsil edilməsi;
- Şöbənin işinin optimallaşdırılması;
- Departament rəhbərinin tapşırıqlarının yerinə yetirilməsi;
- Sənədləşmənin aparılması.

**Tələblər:**

- Ali hüquqi təhsil;
- Bank sahəsində problemli kreditlərin məcburi qaydada geri qaytarılması üzrə minimum 3 il iş təcrübəsi, o cümlədən rəhbər vəzifədə minimum 1 il iş təcrübəsi;
- Müştərilər, dövlət qurumları və digər təşkilatlar ilə iş yazışmaları və danışıqlarının aparılmasında təcrübə;
- Daxili normativ sənədlərlə işləmə və onların tərtib edilməsi üzrə iş təcrübəsi;
- İqtisadiyyatın və bank işinin təşkilinin əsasları, Azərbaycan Respublikasının mülki və bank qanunvericiliyinin əsasları, Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ-hüquqi aktları üzrə biliklər;
- Word və Excel ofis proqramlarında işləmək bacarığı (istifadəçi səviyyəsində);
- Mükəmməl Azərbaycan dili biliyi, rus və ya ingilis dili arzuolunandır.